# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin 01 oktyabr 2014-cü il tarixli 1045 nömrəli əmri ilə təsdiq edilmişdir**

## Orta İxtisas Təhsilinin Dövlət Standartı

## Subbakalavr hazırlığı üzrə

# T Ə H S İ L   P R O Q R A M I

**İxtisasın şifri və kodu: 040104- "Musiqi müəllimliyi"**

**BAKI-2014**

## I. ÜMUMİ MÜDDƏALAR:

**1.1.** Subbakalavr səviyyəsinin 040104-"Musiqi müəllimliyi" ixtisası üzrə Təhsil Proqramı "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş "Orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramına" "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları"na, Azərbaycan Respublikası Təhsil nazirinin "Orta ixtisas təhsilinin ixtisaslar üzrə Təsnifatı"na uyğun hazırlanmışdır

**1.2.** İxtisas üzrə Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən akkreditasiyadan keçmiş və həmin ixtisas üzrə subbakalavr hazırlığını həyata keçirən bütün Orta ixtisas təhsili müəssisələrinin 040104-"Musiqi müəllimliyi" ixtisası üçün məcburidir.

**1.3.** Strukturda istifadə olunan işarələr:

Strukturda istifadə olunan işarələr:

**OİT** – orta ixtisas təhsili.

**OİTP** - Orta ixtisas üzrə Təhsil Proqramı.

**ÜK** - Ümummədəni kompetensiyalar.

**PK** - Peşə kompetensiyaları.

**HF** – Humanitar fənlər bölümü.

**İPF** – İxtisas peşə hazırlığı fənlər bölümü.

### 1.4. 040104- "Musiqi müəllimliyi" ixtisasının xarakteristikası

İTP-nın mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ixtisas dərəcəsi:

| İxtisasın şifri və adı | Verilən ixtisas dərəcəsi | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| 040104-"Musiqi müəllimliyi" | subbakalavr | Tam orta təhsil bazasında<br><br>3 il | 180 |

*Ümumi orta təhsil bazasından və qiyabi forma üzrə təhsil müddəti 1il artıqdır (ixtisas üzrə qiyabi formada təhsil nəzərdə tutulduqda.)

## II.Məzunun ixtisas xarakteristikası və kompetensiyası.

### 2.1. Subbakalavrın ixtisas xarakteristikası.

040104-"Musiqi müəllimliyi" ixtisası üzrə subbakalavr dövlət və qeyri dövlət təhsil müəssisələrində, körpələr evində, körpələr evi-uşaq bağçalarında, uşaq bağçalarında, xüsusi uşaq bağçalarında, uşaq evlərində, məktəbdənkənar tərbiyə müəssisələrində, ümumtəhsil məktəblərində musiqi müəllimi kimi fəaliyyət göstərə bilər, eləcə də təhsilini bakalavr pilləsində davam etdirməyə hazır olmalıdır.

**2.2. Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.**

**2.2.1.** Məzun aşağıdakı ümummədəni kompetensiyalara (**ÜK**) yiyələnməlidir:

**ÜK-1.** Öz gələcək ixtisasının sosial dəyərinin əhəmiyyətini başa düşməli, ona qarşı maraq göstərməlidir;

**ÜK-2.** Öz peşə fəaliyyətini təşkil etməyi, vəzifə borcunun yerinə yetirilməsi üçün müxtəlif metodlar seçməyi və onları qiymətləndirməyi bacarmalıdır;

**ÜK-3.** Müstəqil və təşəbbüskar olmalı, lazım gəldikdə məsuliyyəti öz üzərinə götürməlidir;

**ÜK-4.** Peşəkar inkişaf və peşəyönümlü məsələlərin həlli üçün məlumatın axtarılmasını və istifadəsini həyata keçirməlidir;

**ÜK-5.** Kollektivdə birgə işləməyi,

**ÜK-6.** Təlim prosesinin keyfiyyətinə cavabdehlik daşımalıdır;

**ÜK-7.** Öz inkişafına, peşəkarlığının artırılmasına çalışmalıdır;

**ÜK-8.** Yeni ideyalar irəli sürməli və əsaslandırmalıdır;

**ÜK-9.** Sağlam həyat tərzini gözləməlidir;

**ÜK-10.** Hüquqi biliklərə və etik notmalara malik olmalıdır;

**ÜK-11.**İKT-dən istifadə etməyi bacarmalıdır;

**ÜK-12.** Xarici dildə mətnləri oxuyub tərcümə etmək və fikrini ifadə etməlidir;

**ÜK-13.** Fikrini düzgün və yığcam ifadə etməlidir;

**2.2.2. Məzun aşağıdakı peşə kompetensiyalarına (PK) yiyələnməlidir:**

**PK-1.** Məktəbəqədər müəssisələrdə musiqi məşğələlərinin və asudə vaxtlarda musiqi əyləncə saatlarının təşkili;

**PK-1.1.** Məktəbəqədər müəssisələrdə musiqi məşğələlərinin və musiqi əyləncələrinin məqsədini müəyyən etmək və onları planlaşdırmaq;

**PK-1.2.** Məktəbəqədər müəssisələrdə musiqi məşğələlərini və misiqi əyləncələrini təşkil etmək və aparmaq;

**PK-1.3.** Uşaqların musiqi təliminin və musiqi təhsilinin nəticələrini müəyyənləşdirmək və qiymətləndirmək;

**PK-1.4.** Musiqi məşğələlərini və əyləncə tədbirlərini təhlil etmək;

**PK-1.5.** Məktəbəqədər yaşlı uşaqların musiqi təlim prosesini təmin edən sənədləri hazırlamaq;

**PK-2.** Ümumtəhsil müəssisələrində musiqi dərslərinin aparılması və sinifdənkənar musiqi tədbirlərinin təşkili;

**PK-2.1.** Musiqi dərslərinin və sinifdənkənar musiqi tədbirlərinin məqsədini müəyyən etmək və onları planlaşdırmaq;

**PK-2.2.** Musiqi dərslərini təşkil etmək və aparmaq;

**PK-2.3.** Ümumtəhsil müəssisələrində sinifdənkənar musiqi tədbirlərini təşkil etmək və keçirmək;

**PK-2.4.** Musiqi istedadı olan uşaqları aşkar etmək və onlara pedaqoji dəstək vermək;

**PK-2.5.** Şagirdlərin musiqi təliminin nəticələrini müəyyən etmək və qiymətləndirmək;

**PK-2.6.** Musiqi dərslərini və sinifdənkənar musiqi tədbirlərini təhlil etmək;

**PK-2.7.** Ümumtəhsil müəssisələrində musiqi təlimi prosesini təmin edən sənədləri hazırlamaq;

## III. Təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər

**3.1. Peşə fəaliyyətinin xarakteristikası.**

**3.1.1.** Məzunların peşə fəaliyyətinin sahəsi: məktəbəqədər və ümumtəhsil müəssisələrində uşaqların musiqi təhsili;

**3.2.** Məzunların peşə fəaliyyətinin əsas istiqamətləıri:

**3.2.1.**Uşaqların musiqi təhsilinin təşkili formaları

**3.2.2.** Həmkarları və valideynlərlə Uşaqların musiqi təhsili məsələləri üzrə qarşılıqlı ünsiyyət prosesinin təşkili, məzmunu, həyata keçirilmə yolları və formaları

**3.2.3.** Məktəbəqədər müəssisələrdə və ümumtəhsil məktəblərində musiqi təlimi prosesinin sənədləşməsinin təmin edilməsi;

**3.3. Musiqi müəllimi, musiqi rəhbəri fəaliyyətinin aşağıdakı növlərinə hazırlaşmalıdır:**

**3.3.1.** Məktəbəqədər təhsil müəssisələrində musiqi məşğələlərinin və musiqi əyləncələrinin təşkili;

**3.3.2.** Ümumtəhsil məktəblərində musiqi dərslərinin və sinifdənxaric musiqi tədbirlərinin təşkili;

**3.3.3.** Pedaqoji musiqi-ifaçılıq fəaliyyəti;

**3.3.4.** Musiqi təlim prosesinin metodiki təminatı;

## IV. Orta ixtisas təhsili proqramının strukturuna olan tələblər:

**4.1.** Təhsil proqramına aşağıdakı fənn bölümləri daxildir:

Humanitar və sosial-iqtisadi fənlər;
İxtisas və peşə hazırlığı fənləri bölümü;
Təcrübələr – istehsalat təcrübəsi (ixtisasa uyğun və diplomqabağı);
Yekun attestasiya ixtisas üzrə buraxılış yekun dövlət imtahanı.
* Seçmə fənlər Orta ixtisas müəssisəsi tərəfindən müəyyənləşdirilir.

### 4.2.Ümumtəhsil fənlər bölümü

| № | Fənlərin adı | Auditoriya saatları | Semestr üzrə bölgü | |
|---|---|---|---|---|
| | | | I semestr | II semestr |
| 1 | Azərbaycan dili(təlim rus d-də) ** | 60 | 2 | 2 |
| 2 | Azərbaycan dili(rus) dili | 90 | 4 | 2 |
| 3 | Ədəbiyyat | 90 | 2 | 4 |

| | | | | |
|---|---|---|---|---|
| 4 | Xarici dil | 60 | 2 | 2 |
| 5 | Azərbaycan tarixi | 30 | - | 2 |
| 6 | Tarix | 30 | 2 | - |
| 7 | İnsan və cəmiyyət | 30 | - | 2 |
| 8 | İqtisadiyyatın əsasları | 30 | - | 2 |
| 9 | Cəbr və analizin başlanğıcı | 60 | 2 | 2 |
| 10 | Həndəsə | 30 | - | 2 |
| 11 | İnformatika | 45 | 3 | - |
| 12 | Fizika | 60 | 2 | 2 |
| 13 | Astronomiya | 30 | - | 2 |
| 14 | Kimya | 60 | 2 | 2 |
| 15 | Biologiya | 30 | 2 | - |
| 16 | Fiziki coğrafiya | 45 | 3 | - |
| 17 | Fiziki tərbiyə | 60 | 2 | 2 |
| 18 | GÇH | 60 | 2 | 2 |
| | CƏMİ: | 900 | 30 | 30 |

**Qeyd:** Ümumtəhsil fənləri bölümünə daxil olan fənlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30.10.2006-cı il tarixli, 233 №li qərarı ilə təsdiq olunmuş "Azərbatcan Respublikasında ümumtəhsilin konsepsiyası (Milli Kurikulumu)"na uyğun müəyyənləşdirilir və məzun bu konsepsiyaya uyğun olan biliklərə nail olmalıdır. Birinci kurslarda ümumtəhsil fənləri tədris olunduğu üçün kredit sisteminə daxil edilmir.

- **Azərbaycan bölməsində təhsil müəssisəsinin bu saat hesabına ixtisasın profilinə uyğun müəyyənləşdirdiyi fənnlər tədris oluna bilər.

* Orta ixtisas məktəblərinin təklifləri əsasında Azərbaycan bölməsində təhsil alanlar öz arzuları ilə həmin saat həcmində ikinci xarici dili və ya Azərbaycan dili və nitq mədəniyyəti fənnini seçə bilərlər.

** Seçmə fənlərə orta ixtisas məktəbi tərəfindən fəlsəfə, politologiya, sosiologiya, milli əxlaq və ailə etikası, dövlət və vətən mədəniyyəti, hüququn əsasları və s. humanitar, sosial-iqtisadi fənlər daxil edilə bilər.

*** Ümumtəhsil fənlər bölümü yalnız ümumi orta təhsil bazasından qəbul olunanlara aiddir. Bu bölümdə seçmə fənlər üçün nəzərdə tutulan saatlar ixtisas yönümünə uyğun fənlərə verilir.

**** Humanitar fənlər bölümünə daxil olan "Azərbaycan dili" (xarici dildə təhsil alanlar üçün), "Azərbaycan tarixi", "Xarici dil" fənləri tam orta təhsil bazasından qəbul olunanlar üçün birinci, ümumi orta təhsil bazasından qəbul olunanlar üçün isə ikinci dərs ilindən başlayaraq tədris olunur.

***** İxtisasın peşə hazırlığı bölümünün seçmə fənləri orta ixtisas məktəbi tərəfindən müəyyənləşdirilir. Peşə hazırlığının seçmə fənləri bir neçə bloka ayrılır: ixtisas hazırlığının seçmə fənləri və ixtisaslaşmaların seçmə fənləri. Tələbə ixtisas hazırlığı bir fənn, seçdiyi ixtisaslaşma blokunun bütün fənlərini seçməlidir.

## 4.3. İxtisas üzrə fənn bölümləri, fənlərin kreditləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları

| Fənn bölümünün kodu | Fənn bölümləri, onların mənim-sənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) | Fənn bölməri üzrə kreditlərin sayı | Fənlər | Fənlər üzrə kreditlərin sayı | Qazanılması nəzərdə tutulan kompetensi-yaların kodları |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **HF-BOO** | **Humanitar və sosial-iqtisadi fənlər bölümü:**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində subbakalavr<br>**Bilməlidir:**<br>-Azərbaycan dilinin tarixi, dilin forma və üslubları, Azərbaycan dilindəki fonetik qayda və qanunları, Azərbaycan dilinin lüğət tərkibi, morfologiyası, sintaksis haqqında məlumatları<br>**Bacarmalıdır:**<br>-Ixtisasa aid ədəbiyyatı lüğətlə tərcümə etməyi, ərizə, tərcümeyi-hal yazmağı;<br>**Yiyələnməlidir.** | **28** | **HF-BO1**<br>Azərbaycan dili (təlimi rus dilində olanlar üçün) | **6** | **ÜK-1**<br>**ÜK-3**<br>**ÜK-4**<br>**ÜK-5**<br>**ÜK-7**<br>**ÜK-9**<br>**ÜK-11**<br>**ÜK-12** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | -İxtisasa uyğun materiallardan, proqramdan (kurikulum) istifadə etmək vərdişlərinə | | | | |
| | **Bilməlidir:**<br>-Azərbaycan xalqının və dövlətinin tarixini, azadlıq, demokratiya və müstəqillik yolunda qazandığı nailiyyətləri;<br>**Bacarmalıdır:**<br>-Azərbaycan tarixinin əsas mərhələləri və xronologiyası barədə elmi təsəvvürə, tarixi şəxsiyyətlər və əsas tarixi hadisələr haqqında məlumata malik olmalı, tarixi hadisələrin qiymətləndirilməsinə dair öz mövqeyini əsaslandırmağı və fikrini ifadə etməyi;<br>**Yiyələnməlidir:**<br>-Azərbaycan tarixindən vətən-pərvərlik tərbiyəsində istifadəyə; | | **HF-BO2**<br>Azərbaycan tarixi | **4** | **ÜK-10**<br>**PK-2** |
| | **Bilməlidir:**<br>-İxtisasa aid xarici dildə olan ədəbiyyatı oxuyub başa düşməyi;<br>-Azərbaycan Respublikasının dövlət dilini (Azərbaycan dilini) sərbəst bilməli, onun leksikonundan peşə fəaliyyətində istifadə etməyi;<br>**Bacarmalıdır:**<br>-İxtisasa aid xarici dildə ədəbiyyatı lüğətlə tərcümə etməyi, xarici dildə sadə ünsiyyət qurmağı;<br>**Yiyələnməlidir:**<br>-Xarici dildə olan ixtisasa uyğun materiallardan istifadəyə; | | **HF-BO3**<br>Xarici dil | **8** | **ÜK-1**<br>**ÜK-3**<br>**ÜK-4**<br>**ÜK-5**<br>**ÜK-7**<br>**ÜK-9**<br>**ÜK-11** |
| | **Bilməlidir:**<br>-Cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarını, demokra-tiyanın əsas prinsiplərini;<br>-sosial mühit və sosial vərəsəlik münasibətlərini;<br>- milli və mədəni-tarixi faktorların | | **HF-BO4**<br>Seçmə fənlər*<br>Sosiologiya, politologiya, fəlsəfə milli əxlaq, hüququn əsasları, Dunya və vətən mədəniyyəti | **10** | **ÜK-3**<br>**PK-4**<br>**PK-6**<br>**PK-12**<br>**PK-13** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | təhsil və tərbiyədə rolunu;<br>-Azərbaycan Respublikasının Konstitusiyasının əsas müddəalarını, təhsil sahəsində hüquqi münasibətləri, normativ sənədləri, və əsas qanunvericilik aktlarını;<br>- insanların hüquq və azadlığını, təhsil sahəsində vətəndaşın hüquqlarını tənzimləyən mexanizmləri, əmək müqaviləsinin bağlanması və ona xitam verilməsi qaydasını;<br>**Bacarmalıdır:**<br>-təhsil sahəsində, peşə fəaliyyətini tənzimləyən normativ hüquqi sənədlərdən istifadə etməyi, öz hüquqlarını müdafiə etməyi;<br>-vətəndaş prosessual-əmək qanunvericiliyini hüquqi nöqteyi nəzərdən təhlil etməyi və qiymətləndirməyi;<br>**Yiyələnməlidir**:<br>-peşə fəaliyyətinin hüquqi təminatı haqqında biliklərə və etik normalara | | | | |
| **İPF-BOO** | **İxtisasın peşə hazırlığı fənləri bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində subbakalavr<br><br>**Bilməlidir:**<br>-Ümumdünya musiqi mədəniyyətinin inkişafı və onun müasir vəziyyətini;<br>-Qərbi Avropa, Rus bəstəkarlıq məktəbinin dahi nümayəndələrinin yaradıcılığını; Azərbaycan musiqisinin inkişafı, onun mənbələri, formalaşma yollarını;<br>-proqramda verilən əsərlərin əsas üslub xüsusiyyətlərini (forma, musiqi obrazları, ifadə vasitələri, janr xüsusiyyətləri)ni;<br>- xalq musiqisi yaradıcılığı və dünya musiqi mədəniyyəti xəzinəsinə daxil olmuş nümunələri;<br>-xalq mahnısı, muğam, aşıq sənətinin | **116** | **İPF-BO1**<br>Musiqi tarixi və musiqi ədəbiyyatı | **6** | **ÜK-4**<br>**PK-3**<br>**PK-4**<br>**PK-8**<br>**PK-10**<br>**PK-11**<br>**PK-14** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | musiqinin inkişaf tarixində rolunu;<br>**Bacarmalıdır:**<br>-Musiqi əsərini təhlil etməyi, onun üslub və janr xüsusiyyət lərini döv-rün xüsusiyyətləri ilə uyğunlaşdır-mağı;<br>-musiqi duyumuna görə onların əsas mövzularını;<br>-Musiqi etyudlərindən istifadə edərək, musiqi əsərlərini izah etməyi, bəstəkarlar haqqında danışmağı;<br>**Yiyələnməlidir:**<br>-Not materialı və tədris-metodiki ədəbiyyatlarla işləməyə; | | | | |
| | **Bilməlidir:**<br>- Azərbaycan milli ahənglərini, onların qurulma və əmələgəlmə qaydalarını;<br>-Musiqi janrı, ifadə vasitələri sistemini, musiqi dilinin əsas ele-mentlərini, harmonik qanunlarını;<br>**Bacarmalıdır:**<br>-Əsas ahəngləri, intervalları, akkord-ları qurmağı;<br>- musiqi əsərini yadda saxlamağı, onu digər musiqi əsərlərindən fərqlən-dirməyi ;<br>- yeniləşdirilmiş və ya əlavəli period formasında 1 və 2 səsli imlaların ya-zılmasını,<br>melodiyanın quruluşunu təhlil etməyi;<br>-Musiqinin ifadə vasitələrini təyin etməyi;<br>-Musiqi əsərlərinin harmonik təhlilini verməyi;<br>**Yiyələnməlidir:**<br>-musiqi əsəri ilə bağlı nəzəri məsələ-ləri ümumiləşdirməyi;<br>-musiqi nəzəriyyəsi və harmoniyanın əsas qanunauyğunluqları sahəsində biliklərə;<br>-musiqi fakturasının növünü, | | **İPF-BO2**<br>Musiqi nəzəriy-yəsinin əsasları və harmoniya | **6** | **PK-2**<br><br>**PK-3**<br>**PK-4**<br><br>**PK-7**<br><br>**PK-8**<br><br>**PK-10** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | musiqinin xarakterini təyin etməyə;<br>-4 səsli harmonik halda akkordları qurmaq və həll etməyə;<br>-mahnının melodiyasına akkom-noniment yığmağa; | | | | |
| | **Bilməlidir:**<br>-musiqi əsərlərinin təhlilinin nəzəri əsaslarını;<br>-əsas musiqi formalarının quruluşunun xüsusiyyətlərini;<br>-musiqi əsərlərinin təhlilinin metodlarını;<br>-musiqinin xarakterik xüsusiyyətlərini, əsərin məzmunu, ideyasını, melodiyanın metro-ritmik strukturu və harmoniya fakturasını;<br>**Bacarmalıdır:**<br>-Bədii dövrün xüsusiyyətlərinə uyğun musiqi əsərlərinin quruluşunu, üslub və janr xüsusiyyətlərini təhlil etməyi;<br>-Musiqi təhlili haqda biliklərini professional fəaliyyətdə istifadə etməyi;<br>- müstəqil surətdə musiqi əsərini təhlil etməyi;<br>**Yiyələnməlidir:**<br>-musiqi əsərlərinin ladotonik və harmonik əlaqələrini təhlil etməyə;<br>- mahnı janrının səciyyəvi formalarına, musiqi əsərinin təhlilinə; | | **İPF-BO3**<br>Musiqi əsərlərinin təhlili | **6** | **ÜK-6**<br>**PK-4**<br>**PK-5**<br>**PK-8**<br>**PK-11**<br>**PK-12**<br>**PK-13** |
| | **Bilməlidir:**<br>-əsərlərdən bir və çoxsəsli musiqi parçalarının oxunması və solfecio edilməsini;<br>-musiqi sintaksisin qanunlarını;<br>-sadə və mürəkkəb ölçülərdə dirijor sxemlərinin taktlaşdırılmasını;<br>**Bacarmalıdır:**<br>-melodiyanı, ladın pillələrini, qammaların bütöv səs düzümünü və onların hissələrini dəqiq intonasiya | | **İPF-BO4**<br>Solfecio | **10** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | etməyi;<br>-musiqi əsərlərinin fraqmentlərini savadlı yazmağı, fortopianoda çalmağı, eşitmə ilə təhlil etməyi;<br>-musiqi intonasiyasını düzgün ifa etməyi ritmik və intonasiya səhvlərini təhlil etməyi və düzəltməyi;<br>**Yiyələnməlidir:**<br>-Solfecio nömrələrini üzdən “a capella” və akkomponimentlə oxumağa və traspozisiya etməyə;<br>-Eşitmə ilə akkomponiment, transpozisiya etməyə;<br>- Kamertondan istifadə etmək | | | | **ÜK-3**<br>**ÜK-6**<br>**ÜK-9**<br>**PK-2** |
| | **Bilməlidir:**<br>-Xorla işin metodikasını və nəzəri əsaslarını;<br>-Oxuma zamanı səsin əmələ gəlməsini və tələffüzün spesifik xüsusiyyətlərini;<br>-Səsin qorunmasına olan gigiyenik tələbləri;<br>-xorda səslərin bölünməsini;<br>- xorun tərtibat prinsiplərini, üsul və priyomlarını və s;<br>**Bacarmalıdır:**<br>- Azərbaycan xalq mahnılarının iki-səsli və üçsəsli uşaq xoru üçün tər-tibatını;<br>-uşaqlar üçün xor janrında müşayiətlə və müşayiətsiz özünə akkomponiment etməklə əsərləri ifa etməyi;<br>-müxtəlif vokal-xor repertuarını notdan çalmaq və xor partiyalarını dəqiq intonasiya etməyi;<br>-əsəri düzgün ifa etməsini başa salmağı;<br>- vokal-xor analizini, partitura üzərin-də işləməyi;<br>**Yiyələnməlidir:**<br>-məktəbəqədər və məktəb mahnı repertuarı ilə işləmək və musiqi materialını təhlil etməyə; | | **İPF-BO5**<br>Xor sinfi | **14** | **PK-3**<br>**ÜK-2** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | -vokal-xor işinin metodik üsullarından istifadə etmək;<br>- mahnı-xor partiturasını təhlil etmək;<br>- xor partiturası, xorun kökü və dik-siya üzərində işləmək qaydalarına;<br>- xor tərtibatının üsul və priyomlarına | | | | **ÜK-3**<br>**ÜK-8**<br>**ÜK-9** |
| | **Bilməlidir:**<br>- məktəbdə konsertmeyster fəaliyyətinin pedaqoji xüsusiyyətlərini və s;<br>-Fortepiano ifaçılığının əsaslarını;<br>-Səsin əmələ gəlməsinin əsas üsullarını;<br>-Musiqi ifasının, pedalizasiyanın əsas prinsip lərini;<br>-İnstrumental əsərlərin bədii ifaçılığının vasitələrini;<br>**Bacarmalıdır:**<br>-Müxtəlif janr və formada instrumental əsərləri ifa etməyi;<br>-Vokal və xor əsərlərinə müşayiət etməyi;<br>-İnstrumental əsərləri üzdən çalmağı;<br>**Yiyələnməlidir:**<br>-Musiqi əsərini bir tondan başqa tona keçirmək;<br>-Musiqi əsərinin fakturasını sadələşdirmək; | | **İPF-BO6**<br>Konsertmey-ster sinfi və ansambl | **4** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4** |
| | **Bilməlidir:**<br>- dirijorluğun nəzəri əsaslarını və təd-risi metodikasını;<br>-Dirijorluğun texniki vasitələrini;<br>-Dirijorun duruş vəziyyətini(bə-dən, əllər və başın vəziyyəti, bi-lək və onun plastikliyi);<br>-Taktlaşdırma.Dirijorluq sxemlərində zərbələrin hərəkətstrukturu;<br>-Dirijorluğun əsasları: auftaktlar,jestlər və impulslar;<br>**Bacarmalıdır:** | | **İPF-BO7**<br>Dirijorluq | **10** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | -Xor əsərini fortepianoda çalmaq;<br>-f,p, mf, mp dinamikada dirijorluq etmək;<br>-Fermatonun sadə formalarını göstərmək;<br>-Templərin dəyişilməsini göstərmək;<br>-dirijorluq dərslərində müasir təlim metodlarından və texnologiyalarından istifadəni<br>**Yiyələnməlidir:**<br>- dirijorluq vərdişlərinə, xorla münasibət metodlarına;<br>-Məktəb mahnıları üzərində müstəqil işləmək;<br>-Müşayiətlə və müşayiətsiz əsərlərə dirijorluq etmək;<br>-Əsərləri yazılı təhlil etmək;<br><br>**Bilməlidir:**<br>-Xor haqqında ümumi məlumatı;<br>- xorun yaranma tarixi, tipləri və növlərini;<br>- xorun tərtibat prinsiplərini, üsul və priyomlarını və s.;<br>-Xorun tipi və səs tərkibini;<br>-Xorun səsləri, onların diapazonu və xüsusiyyətlərini;<br>-Xor partiyalarının ümumi xarakteristikası;<br>**Bacarmalıdır:**<br>- xor ifaçılığında janr və formaları fərqləndirməyi, xora dirijorluq etməyin əsas qaydalarını;<br>-İntervalların düzgün intonasiya edilməsi üsullarını;<br>-Xora dirijorluq etmənin əsas qaydalarını;<br>-Ölçülər və onların dirijorluq sxemasını;<br>-Nüansların və səsin verilməsi xüsusiyyətlərinin göstərilməsini;<br>-Musiqi əsərinin xor ilə öyrədilməsi;<br>xor əsərinin lodik-konstruktiv təhli- | | **İPF-BO8**<br>Xorşünaslıq | **4** | **ÜK-9**<br><br>**PK-1**<br><br>**PK-2**<br><br>**PK-3**<br><br>**ÜK-12**<br><br>**PK-2**<br><br>**PK-3** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | lini;<br>**Yiyələnməlidir:**<br>-Xormeyster vərdişlərinə yiyələnmək;<br>-Xor əsəri üzərində işləyərkən, sözlərin düzgün, dəqiq və aydın tələffüz edilməsinə yiyələnmək;<br>-xor partiturası, xorun kökü və diksiya üzərində işləmək qaydalarına;<br>-Şəxsi və ümumi ansambl üzərində işləmək; | | | | **PK-4** |
| | **Bilməlidir:**<br>-Azərbaycan xalq musiqisinin cəhətlərindən biri olan səs sistemini;<br>-Tetraxortların birləşmə üsullarını;<br>-Azərbaycan musiqisinin 7 əsas muğamlarını: Rast, Şur, Segah, Şüştər, Cargah, Bayatı-Şiraz və Humayun<br>**Bacarmalıdır:**<br>- Azərbaycan milli ladlarından istifadə etməyi;<br>- Azərbaycan xalq musiqisi janrlarından istifadə etməyi<br>**Yiyələnməlidir:**<br>-Azərbaycan xalq musiqisi janr larından istifadə formalarına<br>-Azərbaycan muğamlarının əmələ gəlmə qaydalarına;<br>-Xalq üslubunda Azərbaycan muğamlarında musiqi bəstələmək qaydalarına; | | **İPF-BO9**<br>Azərbaycan xalq musiqisinin əsasları | **6** | **ÜK-3**<br>**ÜK-9**<br>**PK-2** |
| | **Bilməlidir:**<br>-Məktəblilərin yaşına uyğun repertuar seçməyi;<br>-Yaş xüsusiyyətinə və imkanlarına uyğun vokal çalışmaları seçməyi;<br>-Öyrənilən əsərlərin mənimsənilməsi üçün iş metodlarını seçməyi; ifa olunan mahnının forma və məzmu- | | **İPF-BO10**<br>Məktəb mahnı repertuarı | **8** | **PK-3** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | nunu;<br>**Bacarmalıdır:**<br>- -Təmiz intonasiya ilə oxumağı;<br>- oxuyan zaman nəfəsalmanı və səsi idarəetməyi;<br>-Ritmik oxumağı, musiqi yaddaşını inkişaf etdirməyi, ansamblda oxumağı uşaqlara öyrətməyi;<br>- müxtəlif xarakter və məzmunlu əsərləri repertuara daxil etməyi;<br>**Yiyələnməlidir:**<br>-Məktəb mahnılarını müşayiətlə və müşayiətsiz oxumaq;<br>-məktəb mahnılarını öz müşayiəti ilə ifa etməyə<br>-Vokal-xor vərdişlərinin mənimsənilməsi ;<br>-Əsas biliklərə; temp, dinamika, registr, melodiya, ritm və onlar arasında əlaqə yaratmağa;<br>**Bilməlidir:**<br>- pedaqogikanın əsas anlayışlarını ,<br>-Pedaqogikanın tarixini, ümuminəzəri əsaslarını, məzmununu və pedaqoji prosesinqanunauyğunluqlarını məktəbəqədər və məktəb pedaqogikasının tətqiqat metod-larını, hər yaş dövrünün inkişaf xüsusiyyətlərini, uşaq bağçası ilə məktəb arasında əlaqə ardıcıllığını;<br>- müasir təlim metodlarını;<br>**Bacarmalıdır:**<br>- təlim-tərbiyə prosesini düzgün təşkil etməyi, sənədləşmə işini aparmağı;<br>-Təlimin təşkili formalarına rəhbərlik etməyi, ənənəvi və fəal təlim metodlarını təhsil prosesinə tətbiq etməyi, qiymətləndirmə aparmağı, uşaqların istedad və qabiliyyətlərini üzəçıxarmağı, təlimin inteqrativliyini təmin etməyi;<br>**Yiyələnməlidir:**<br>- müəllim üçün zəruri olan keyfiyyət-lərə, müasir təlim texnologiyalarına və | | **İPF-BO11**<br>Pedaqogika | **8** | **ÜK-8**<br>**ÜK-9**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-7**<br>**PK-8** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | s;<br>-Uşaqların ailədə tərbiyəsinin elmi əsasları, ailədə tərbiyəedici şəraitin yaradılması, qrup və kollektivə rəhbərlik etmək, tərbiyə, təhsil və təlim prinsiplərinə əsaslanaraq, müasir təlim metodlarını İKT-yə tətbiq etmək bacarıqlarına;<br>-Məktəbəqədər və kiçik məktəb yaşlı uşaqların fiziki, sosial-emosional, yaradıcı və intelektual inkişafı üçün şərait yaratmağı, sadə əmək vərdişlərinə yiyələnməsini təmin etməyi, kollektivdə qarşılıqlı münasibətlərin düzgün qurulması; | | | | |
| | **Bilməlidir:**<br>-Psixologiyanın predmetini, metodlarını, psixi inkişafın qanunauyğunluqlarını, qarşılıqlı münasibətlər və uşaq psixologiyasını məktəbəqədər və kiçik məktəb yaşlı uşaqların yaş və fərdi-psixi xüsusiyyətlərini;<br>**Bacarmalıdır:**<br>- hər bir şagirdə psixoloji baxımdan fərdi qaydada yanaşmağı;<br>fərdi-psixi xüsusiyyətləri formalaşdırmağı,<br>-iradi keyfiyyətlər tərbiyə etməyi;<br>**Yiyələnməlidir:**<br>- şagirdlərə psixoloji yanaşma keyfiyyətlərinə və s; | | **İPF-BO12**<br>Psixologiya | **6** | **ÜK-12**<br>**PK-2**<br>**PK-4**<br>**PK-7**<br>**PK-8**<br>**PK-10** |
| | **Bilməlidir:**<br>-İKT-nin tədrisə tətbiqini, informatikanın əsas anlayışlarını, informasiyanın verilməsi və axtarışı, internetdən istifadəni;<br>-təhsil prosesində texniki təhlükəsizlik qaydalarına və gigiyenik tələblərə riayət etməyi;<br>- müxtəlif proqramlaşdırma dillərini, | | **İPF-BO13**<br>Təhsildə İKT | **6** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | proqram təminatı və proqramlaşdır-manın texnologiyasını və s.<br>**Bacarmalıdır:**<br>-müxtəlif əməliyyat sistemlərindən istifadə etməyi və s.<br>-İKT-dən istifadə edərkən texniki təhlükəsizlik qaydalarına və gigiyenik tələblərə əməl etməyi,<br>-peşə fəaliyyətində məlumatları əldə etmək, redaktə etmək, tərtibat vermək, müasir informasiya texnologiyasını təhsilə tətbiq etməyi;<br>**Yiyələnməlidir:**<br>təlim prosesində İKT-dən istifadə texnologiyasına və s.<br>-İKT-dən istifadə edərək şəxsi inkişafa və peşəkar fəaliyyətə<br><br>**Bilməlidir:**<br>-Uşaqların və şagirdlərin musiqi qabiliyyətlərinin xarakteristikasını;<br>-Musiqi məşğələlərinin, dərslərin, musiqi əyləncələrinin təşkilinin və keçirilməsinin metodikasını;<br>-Uşaqların estetik inkişafında rit-mikanın rolunu;<br>-Ritmika və rəqs məşğələlərində uşaqların fəaliyyətinin təşkilinin məsələlərini, məzmununu, forma-larını və metodlarını;<br>-Vokal əsərini düzgün ifa etməyi;<br>-inklüziv təhsilin məqsədini, vəzifəsini və mahiyyətini, xüsusi qayğıya ehtiyacı olan uşaqların xüsusiyyətlərini və kompensator imkanlarını;<br>**Bacarmalıdır:**<br>-Uşaqların və şagirdlərin yaş xüsusiyyətlərinə uyğun məşğələlərdə, dərslərdə və asudə vaxtlarda onların fəaliyyəti üçün müxtəlif metod, vasitə və formalardan istifadə etməyi;<br>-Bayramlarda hazırlıq işləri apardıqda | | **İPF-BO14**<br><br>**Musiqi və onun tədrisi metodikası** | **6** | **ÜK-3**<br>**PK-4**<br>**PK-6**<br>**PK-12**<br>**PK-13**<br>**ÜK-4**<br>**PK-3**<br>**PK-4**<br>**PK-8**<br>**PK-10** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | məşqləri təşkil etmək və keçirmək;<br>-Mürəkkəb olmayan rəqs kompozisiyalarını yaratmağı;<br>-Mahnıları səhnələşdirmək, musiqili-ritmik oyunların və hərəkətlərin variantlarını tərtib etmək;<br>-Uşaq auditoriyası üçün solo oxumasına aid müşayuətlə əsərləri ifa etməyi;<br>**Yiyələnməlidir:**<br>-Musiqi məşğələlərinin, dərslərinin planlaşdırılması, əyləncələrin və sinifdənkənar tədbirlərin ssenarisinin tərtibinə;<br>-Bayramların və tədbirlərin hazırlığı və keçirilməsinə, tədris sənədlərinin aparılmasına;<br>-Məktəbəqədər yaşlı uşaqlar üçün musiqili oyunların, rəqslərin, yallıların repertuarına ;<br>-Sola ifanın əsas prinsiplərinə, səsin inkişafının əsas etaplarına, səsin gigiyenası və mühafizəsinə;<br><br>**Təcrübələr :**<br>Bu bölümə aid olanların öyrənilməsi nəticəsində təhsil alan<br>**Bilməlidir:**<br>-müxtəlif yaş qruplarının gün rejimini;<br>-gün ərzində uşaqların müxtəlif fəaliyyətlərinin təşkili və keçirilməsi metiodikasını;<br>**Bacarmalıdır:**<br>-gün ərzində uşaqların müxtəlif fəaliyyətlərinə rəhbərliyi və onlarla ünsiyyət qurmağı;<br>**Yiyələnməlidir:**<br>-gün ərzində uşaqların müxtəlif fəaliyyətlərində, məşğələlərdə interaktiv təlim metodlarından yerində istifadəyə;<br>**Yekun attestasiya:**<br>**Tam orta təhsil bazasında** | **30**<br><br>**6** | **İPF-BO15**<br>Seçmə fənlər | **16** | **PK-11**<br>**PK-14**<br>**ÜK-10**<br>**ÜK-12**<br>**ÜK-8**<br>**PK-11**<br>**PK-13** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | **kreditlərin ümumi cəmi:** | **180** | | | |

*Bütün bölümlərdə seçmə fənlər müvafiq şərtlərə (kompetensiyalara) uyğun orta ixtisas təhsili müəssisələri tərəfindən müəyyənləşdirilir.
**Fiziki tərbiyə idmanın növləri üzrə bölmələrdə keçirilir.
-1 kredit 30 saata bərabərdir (15 saat auditoriya, 15 saat auditoriyadan kənar).

**V. 040104- "Musiqi müəllimliyi"" ixtisası üzrə subbakalavr təhsil proqramının yerinə yetirilməsinin müddəti.**

**5.1 "Musiqi müəllimliyi" ixtisasi üzrə**

Subbakalavr təhsil proqramını mənimsəmək üçün ayrılan ümumi həftələr - 198;
Tam orta təhsil bazası - 146;
Nəzəri təlim üçün ayrılan həftə-ümumi orta təhsil bazası - 102;
Tam orta təhsil - 72;
O cümlədən təcrübələr üçün ayrılan həftələr - 20;
İmtahan sessiyası üçün ayrılan həftələr-ümumi təhsil bazası - 34;
Tam orta təhsil bazası - 24;

Tətillər üçün ayrılan həftələr-ümumi orta təhsil bazası - 38
Tam orta təhsil bazası - 26;
Buraxılış işinin hazırlanması və müdafiəsinə
(yekun dövlət imtahanına) ayrılan həftələr - 4

. **VI. Maddi-texniki,tədris bazası və kadr potensialı.**

**6.1.** Orta ixtisas təhsili müəssisəsinin **040104- Musiqi müəllimliyi**"ixtisasının müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan təhsil proqramına fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi üçün müvafiq musiqi alətləri , İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, idman zalı, kitabxana və oxu zalı və s.ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır.Təhsil alanların orta ixtisas təhsili müəssisəsinin lokal şəbəkəsinə,internetə, elektron kitabxanalarına,axtarış sisteminə çıxışı təmin edilməlidir.

**6.2.**Fənlərin tədrisi, bir qayda olaraq, müvafiq ixtisaslar üzrə ali təhsilli, eyni zamanda müəyyən istehsalat və pedaqoji təcrübəsi olan müəllim heyəti tərəfindən aparılır.

**7.Tədris prosesinin forma və metodları**.

**7.1**. Subbakalavr hazırlığı, dərs və təcrübi dərs formalarında həyata keçirilir.
**7.2**. Subbakalavr hazırlığı üzrə tədris prosesində təlimin şifahi, əyani, praktik metodlardan, fəal təlim metodlarından, İKT-nin tədrisə tətbiqindən (elektron dərs) istifadə edilməlidir.

**7.3. 040104- Musiqi müəllimliyi** üzrə subbakalavr hazırlığında istehsalat və pedaqoji təcrübələr nəzərdə tutulur. Təcrübələr müvafiq təhsil müəssisələrində, cəmiyyət , mərkəz və təşkilatlarda, keçirilə bilər.

**7.3.1. 040104- Musiqi müəllimliyi** ixtisası üzrə təhsil alan subbakalavr valideynlərlə (qəyyumlar, himayəsində olan şəxslərlə), təhsil müəssisəsinin əməkdaşları ilə qarşılıqlı fəaliyyətdə olmalı, əməli təcrübəyə malik olmalı, sağlam və sağlamlıq imkanları məhdud olan uşaqlarla işləməyə, valideynlərin qarşılaşdıqları çətinlikləri, əldə etdikləri nailiyyətləri müşahidə və müzakirə etməli; məqsəd və vəzifələri müəyyənləşdirməlidir;

- Subbakalavr təhsil müəssisəsinin əməkdaşları, tərbiyəçi və müəllimlərin, valideynlərlə (qəyyum və himayəsində olan şəxslərin) qarşılıqlı fəaliyyətinin nəzəri və metodiki əsaslarına yiyələnməlidir.

## 8. Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə.

**8.1. -040104- Musiqi müəllimliyi** Subbakalavr – peşə ixtisas dərəcəsi üzrə təhsil proqramı, təhsil alanların dövlət attestasiyası ilə yekunlaşır.

**8.2.** Tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalarda) müvəffəqiyyətlə keçmiş tələbələr yekun attestasiyaya buraxılırlar.

**8.3**. Yekun attestasiya bütün təhsil alanlar üçün məcburidir, onun hazırlanmasına və **təşkilinə ayrılan müddət 4 həftədir.**

**8.4.** Yekun attestasiya ixtisas üzrə buraxılış yekun dövlət imtahanından (fənlərarası) ibarətdir.

**8.5.** Subbakalavrin topladığı kreditlərin sayı **180** olmalıdır. İxtisas üzrə təhsil proqramlarında nəzərdə tutulmuş kreditləri toplayan tələbə həmin proqramı mənimsəmiş hesab edilir. Orta ixtisas təhsil müəssisələrində ixtisasın təhsil proqramı üzrə tədris planını tam yerinə yetirmiş şəxslərə yekun Dövlət Attestasiya Komissiyasının qərarı əsasında “Subbakalavr” peşə ixtisas dərəcəsi verilir.

**8.6.** Yekun attestasiyanın təşkili və keçirilmə qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti Tərəfindən müəyyənləşdirilir.

**Razılaşdırılmışdır:**

| | |
|---|---|
| Azərbaycan Respublikası Təhsil Problemləri İnstitunun direktoru | Təhsil Nazirliyi Orta İxtisas Təhsili sektorunun müdiri |
| ______________________Q.Novruzov | ________________K.Mikayılov |
| «______»_______________2014-cü il | «______»_______________2014-ńü il |
| Təhsil ixtisasları qrupu üzrə Dövlət Təhsil Standartlarını hazırlayan işçi qrupun sədri | Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi Metodiki-Şurasının “Məktəbəqədər və ibtidai təhsil” bölməsinin sədri |
| ____________D.Hacıyeva | _______________________Y.Kərimov |
| «______»_______________2014-cü il | «______»_______________2014-cü il |